*“Yapon dili və yapon mədəniyyətini tədqiq edən tələbələr üçün təqaüd proqramı”*
*2015 (Nikkensei)*

12 yanvar 2015-ci il
Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Mədəniyyət və Məlumat Məsələləri Şöbəsi

**1.Sənədləri yapon dilində hazırlamağa ehtiyac varmı?**

Bir qayda olaraq sənədlər yapon dilində və yaxud ingilis dilində hazırlanmalıdır. Başqa dildə hazırlanan sənədlərə notarial qaydada təsdiqlənmiş, ingilis və ya yapon dillərində hazırlanmış tərcümələr əlavə olunmalıdır. Sənədlərin hansı dildə hazırlanması tələbənin qəbul olub və yaxud olmayacağına heç bir aidiyyəti yoxdur, lakin siz anlamalısınız ki, “Yaponiya universitetində yapon dilində təhsil ala biləcək dərəcədə yapon dili biliyinə sahib olmaq şərtlərdən biridir”.

**2.Yaponiyanın istənilən universitetini seçmək mümkündürmü?**

Yalnız “Kurslar haqqında bələdçi”də adları qeyd olunan universitetlərin seçimi mümkündür. Özəl universitetlərin bəzilərində dərslər sentyabr ayında başladığı üçün sizdən xahiş olunur ki, universitet seçimində diqqətli olasınız.

**3.Bu proqram ilə Yaponiya universitetlərində elmi dərəcə almaq mümkündürmü?**

Bu proqram ilə elmi dərəcə almaq mümkün deyil. Həmin proqram ilə Yaponiya universitetində 1 il təlim kursu keçmək imkanı əldə edə bilərsiniz. Lakin universitetin daimi tələbəsi qismində təhsili davam etdirmək mümkün deyil. Həmçinin,təlim kursu bitdikdən sonra elmi dərəcə almaq üçün tədqiqat işini davam etdirmək arzusunda olsanız belə, təqaüdün müddətini uzatmaq mümkün olmayacaq.

**4.Hal-hazırda birinci kurs tələbəsiyəm. Həmin proqrama müraciət edə bilərəmmi?**

1 aprel, 2015-ci il tarixi üçün 1-ci kurs tələbəsi hesab olunan tələbələrin bu proqrama müraciəti mümkün deyil.

**5.Yapon dili fakultəsi və yaxud kafedrasına aid olmayan şəxslər həmin proqrama müraciət edə bilər mi?**

Təəssüflər olsun ki, bu proqram yalnız yapon dili və ya yapon ədəbiyyatı üzrə ixtisaslaşan tələbələr üçün nəzərdə tutulub. Yaponiyanın digər sahələri üzrə, məsələn, texnologiyası, iqtisadiyyatı, kənd təsərrüfatı, incəsənəti üzrə təhsil alan tələbələrin bu proqrama müraciəti mümkün deyil. Maraqlananların nəzərinə qeyd etmək lazımdır ki, Yaponiya Tələbələrə Dəstək Təşkilatı （www.jasso.go.jp）xarici tələbələrə qısamüddətli proqramların təşkili ilə məşğul olur.

**6.Bu ilin sentyabr ayında təhsilimi bitirməyi planlaşdırıram. Həmin proqrama müraciət edə bilərəmmi?**

Universitet məzunlarının və məzun olmağa hazırlaşan şəxslərin həmin proqrama müraciəti mümkün deyil.

**7.Mən seçilən tələbələrin siyahısına daxil oldum. Ardıcıllığı bilmək istərdim.**

Səfirlik seçilən tələbələrin seçim ardıcıllığını açıqlamır. Həmçinin, səfirlik tərəfindən təqdim olunan tələbələrin siyahısında tövsiyyə olunacaq tələbələrin ardıcıllığı əks olunmur. Sizdən son nəticələr elan olunana qədər gözləməyinizi xahiş edirik.

**8.Zəhmət olmasa yazılı imtahanın məzmununu açıqlayın.**

Yazılı imtahan iki saat davam edəcək və yalnız yapon dili imtahanından ibarət olacaq. 2007-2008-ci illərin imtahan toplusuna aşağıda qeyd olunan elektron ünvandan baxa bilərsiniz.
www.studyjapan.go.jp/jp/toj/toj0308j.html

**9.Azərbaycandan neçə nəfər həmin proqram ilə seçilə bilər?**

Tələbələrin seçimində heç bir məhdudiyyət yoxdur. Dünyanın müxtəlif ölkələrindən ən istedadlı tələbələr ardıcıl olaraq təqaüdü qazanmış olurlar. 2012-ci ildə Azərbaycandan 2 nəfər, 2013-cü ildə 4 nəfər, 2014-cü ildə isə 1 nəfər həmin təqaüdü qazanmışdır.